UOT 37.

***Şəlalə Bahadur qızı Rəhimova***
*İmişli rayon 3 nömrəli tam orta məktəbin rus dili müəllimi*

# MÜASİR DƏRSƏ VERİLƏN TƏLƏBLƏR

***Шалала Бахадур гызы Рагимова***
*учитель русского языка*
*средней школы № 3 Имишлинского района*

# ТРЕБОВАНИЯ, ПРЕДЪЯВЛЯЕМЫЕ К СОВРЕМЕННОМУ УРОКУ

***Shalala Bahadur Rahimova***
*russian language teacher of secondary school number 3 of the Imishli district*

# REQUIREMENTS FOR A MODERN LESSON

**Xülasə**. Təlim prosesi yeniliklər tələb edən prosesdir. Bilik, bacarıq və vərdişlər əsasən dərsdə verilir. Buna görə də bu məqalə çox əhəmiyyətlidir. Burada müəllimin yaradıcılığı, dərsdə hansı yeniliklərdən istifadə edərək şagirdlərdə dərsə maraq yaradacağı haqqında yazılıb.

***Açar sözlər****: müasir dərs, təhsil prosesi, informasiya və kommunikasiya texnologiyaları , müəllim-şagird münasibətləri*

**Резюме**. Процесс обучения – это процесс, требующий инноваций. Знания, умения и навыки в основном даются на уроке. Поэтому данная статья очень важна. Здесь повествуется о творчестве учителя, какими инновациями он пользуется для поддержания интереса учеников к уроку.

***Ключевые слова****: современный урок, процесс обучения, информационно-коммуникативные технологии, отношения «учитель-ученик»*

**Summary**. Training process demands innovations. Knowledge, competence and practice are mainly given during lessons. Therefore, this article is quite essential. In the article it is written about teachers creativity, which innovations they will benefit of to arouse students interest on lessons.

***Key words****: modern lesson, educational process, information and communication technologies, teacher-student relations*

Müasir dərs dedikdə, ilk əvvəl müasir dərsi təşkil və tədris edən müəllim gəlir ağlımıza, müəllim dedikdə isə xəyalımızda tərbiyəçi, tədrisi, bir sözlə nümunəvi insan obrazı canlanır. Müəllim öz qabiliyyəti, davranışı, geyim, danışıq tərzi, öyrənməyə həvəs göstərməsi ilə şagirdi cəlb etməlidir. Hər bir şagird özü üçün ideal bir müəllim obrazı seçir və ona bənzəməyə çalışır, demək olar ki şagirdlər zamanının böyük hissəsini məktəbdə müəllimlərin himayəsində keçirir. Müəllim şagird qədər həvəsli olmalıdır dərsinə, səbirli olmalıdır, daim həvəsləndirici metodlar axtarışında olmalıdır. Mən bunu şagirdlər arasında apardığım sorğuya əsasən bildirirəm.

Fatimə adlı 6-cı sinif şagirdimlə dərsdən kənar söhbət apararkən ondan hansı dərsə daha çox maraq göstərdiyini, məktəbi bitirdikdə hansı peşəyə sahib olmaq istədiyini soruşdum.

Fatimənin cavabı belə oldu:

“Mən rus dili müəllimi olmaq istəyirəm. Rus dili fənnini başqa fənlərdən fərqləndirirəm. Çünki müəllimimiz bizə yarışlar, dərsə aid oyunlar keçirir. Bir mövzunu başa düşməyəndə bizə dəfələrlə başa salır. Dərsimizi daha yaxşı öyrənəndə “afərin” , “ + ” , “ ulduz ” yazır.”

Dərsin keyfiyyəti müəllimin dərsə yaradıcı münasibətindən çox asılıdır. Müəllim dərsdə təlim-tərbiyə prosesini necə yaxşılaşdırmaq barədə daima düşünməlidir. Öz işini, tədris etdiyi

fənni, şagirdlərini sevməlidir, onlarla sıx əlaqə içərisində olmalıdır, dinləmək və anlatmaq qabiliyyəti yüksək səviyyədə olmalıdır. Məşhur rəssam Leonardo da Vinçinin bu sözünü xatırlayıram "Ləzzətlə yemədiyin yemək usandırıcı olduğu kimi, ehtirasla məşğul olmadığın elm də hafizəni korlayır: o, udduğunu mənimsəmək iqtidarında olmur. ”

Müəllim unutmamalıdır ki müxtəlif mühitlərdən gələn şagirdlər eyni fəallığı göstərə bilməzlər və bunun üçün hər şagirdə özünəməxsus yanaşma tərzi tətbiq etməlidir.

Müəllim psixologiya sənətini bilməlidir, şagirdlərin ailə həyatları ilə yaxından tanış olmalıdır, onların müxtəlif hadisələrə necə yanaşdığını, nə fikirləşdiyini baxışlarından anlamalıdır. Təlim prosesində xoş əhval-ruhiyyə yaratmalıdır. Belə şərait məktəblilərdə dərsə olan marağı, düşüncə tərzin xeyli artırır. Təəssüf ki, hazırda az da olsa, sinfi idarə edə bilməyən hazırlıqsız müəllimlər sinifdə tələbkarlıq adı altında, kobud söz gücünə özlərinin qəbul edilməsinə çalışırlar. Belə üslub şagirdlərin təlim-tərbiyəsinə mənfi təsir göstərir.

Məktəb elə bir məkandır ki, burada gənc nəsil formalaşır, inkişaf edir. Məktəbdəki gərginlik şagirdlərin həm təliminə, həm tərbiyəsinə təsir edir, onların özünə qapanmasına səbəb olur. Müəllim şagirdlərə özlərinin bildikləri kimi hərəkət etmələrinə və fikirləşmələrinə imkan verməli, onların hüquqlarını tapdamamalıdır.

Qısa desək, müasir dərs modelini uğurla tətbiq etmək istəyiriksə, müasir düşüncəyə sahib olmalıyıq, müasir yanaşmamız, dünyagörüşümüz olmalıdır. Müəllim təlimin yeni texnologiyasını bilməli, mövzuları yeni proqram və dərsliklər əsasında tədris etməlidir.

Dərs o zaman fayda gətirir ki, şagirdlərdə canlı maraq doğurur, onları diskussiyaya girməyi, müxtəlif düşüncələrdən nəticə çıxarmağı öyrədir. Körpə uşaq hər şeyə toxunaraq, kəşf edərək öyrəndiyi kimi, şagirdlər də dərsdə hazır biliklər əvəzinə, dərsi anlamaq, dərsdə fəal iştirak etmək istəyirlər. Təhsil hamı üçün eyni olmamalıdır. Burada məktəblilərin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

Şagirdlərdə özünəinam hissi yaratmaq üçün onlara sinfin və dərsin təşkilində sərbəst iştirak etmək şəraiti yaradılmalıdır. Müasir dərs anlayışı bütün iştirakçıların qarşılıqlı inam və etibarı əsasında canlı ünsiyyət deməkdir.

Ənənəvi dərs tipində biz ilk növbədə lövhənin qarşısında duran müəllimi və onun sakit dinləyiciləri olan şagirdləri görürük. Onlar dərsdə məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq, bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Savadlı müəllim anlayışında isə, biliklər şagirdlərə hazır çatdırılmamalı, onların zəkası tamamilə hazır məlumatlarla doldurulmamalıdır, məktəblilərin beynində fikrin meydana gəlməsinə, yaranmasına kömək göstərilməlidir.

Ənənəvi metodda hazır bilikləri lazımi səviyyədə mənimsəyə bilməyən şagird zəif qələminə, əzbərçilik qabiliyyəti yüksək olan şagird isə qüvvətli qələminə verilirdi.

Müasir dərsdə isə müəllim hər bir uşağı görür, onun potensialından istifadə edir, müxtəlif maraq yaradan üsullardan faydalanaraq onu dərsə cəlb edir.

Dərs həm müəllimin, həm də şagirdin yaradıcılığının nəticəsi olur.

Təlim yalnız öyrədici məqsəd daşımamalı, eyni zamanda inkişafedici və tərbiyəedici məqsədlərə də olmalıdır.

Müasir dərsdə İKT-ya geniş yer verilir. Multimedia vasitələri, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və şagirdlərin olimpiadalarda, intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyətini xeyli artır.




İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu daha maraqlı edir. Müxtəlif rəsmli, sxematik dərs izahları şagirdlərin yaddaşına daha dərin həkk olunur. Təhsilalanların maraq dolu baxışları, dərs haqqında onlarda müxtəlif sualların yaranması, şəkilli və videofayllı izahlarda daha çox məlumat

əldə etmək istəyi, məktəbliləri müəllimlə, bir-biriləri ilə müzakirəyə girməyə məcbur edir, nəticədə bütün şagirdlər dərs haqqında zəruri məlumata yiyələnirlər.

Ənənəvi sıxıcı keçirilən dərslərdə tənəffüsü səbirsizliklə gözləyən şagirdlər 45 dəqiqənin tez yekunlaşmağına təəccüb edirlər və təəssüf hissi keçirirlər. Bu sevindirici haldır.

Mən xarici dil müəllimi olaraq İKT dən xarici dil fənnində necə istifadə etdiyimdən söz açmaq istəyirəm.

Xarici dil dərslərində İKT-dən istifadənin əsas məqsədləri aşağıdakılardır:

- dil öyrənmək üçün motivasiyanın artırılması;
- anlamaq imkanı;
- dil bacarıqlarının artırılması;

Rus dili dərslərində informasiya kommunikasiya texnologiyaları şagirdlərin dil biliklərini günün tələblərinə uyğun səviyyədə və daha tez formalaşdırır.

Kompüter texnologiyalarının köməyindən faydalanaraq, daha maraqlı resurslar, oyunlar hazırlayıram. Online sınaq tərtib edirəm və şagirdlər testləri qrup, cütlük və ya fərdi şəkildə oynayırlar. Bu zaman rəqabətlilik yaranır.



Qrammatika, məsələn, fonetika, leksika bölməsini şagirdlərə aydınlaşdırarkən sxematik slaydlar hazırlayır, multimedia resurslarından istifadə edir, səslənmələr vasitəsiylə şagirdlərin bu çətin bölməni daha yaxşı başa düşmələrinə şərait yaradıram.

Belə tədrisdə şagirdlər hamısı, o cümlədən passiv, utancaq şagirdlər də lövhəyə çıxıb müəllimin tapşırıqlarını yerinə yetirməkdə həvəsli olurlar. Şagirdin özünə inamı artır, həm də onda fənn qarşısındakı qorxu hissi yox olur.

Çox istifadə etdiyim digər təlim metodu isə fərdi-qrup formasıdır. Bu forma şagirdlərin idrak fəaliyyətini inkişaf etdirdiyindən, dərsdə fəallıqlarını artırdığından çox əhəmiyyətlidir.

Ənənəvi dərsdən fərqli olaraq, fərdi-qrup işlərdə şagirdlərlə müəllimlər arasında qarşılıqlı əlaqə yaranır. Eyni zamanda belə əlaqə şagirdlərin özləri arasında da meydana çıxır. Məktəblilər özlərini sərbəst hiss edirlər, müəllim onlar üçün köməkçiyə, məsləhətçiyə çevrilir, dərsin sonunda isə yoxlayıcı kimi özünü göstərir.

Xarici dilin tədrisində kommunikativ dərs metoduna da müraciət edir, müxtəlif situasiyalar yaradıram (mağazada, tanışlıq, metroda və s.). Bu metod dil biliyini real situativ mühitdə istifadə etməyi nəzərdə tutur. Məsələn, kommunikativ səriştəsi olan şəxs alış-veriş etmək, istiqaməti soruşmaq, şəxsi hisslərini ifadə etmək kimi işləri rus dilində necə yerinə yetirməyi yaxşı bilir.

Müasir dərs qarşılıqlı hörməti, qarşılıqlı anlaşmanı, birgə yaradıcılıq fəaliyyətini və s. insani münasibətləri inkişaf etdirir. Müasir dərsdə daimi olaraq həvəsləndirici metodlardan faydalanmaq məqsədəuyğundur. Belə ki, məsələn, fənn üzrə bilik yarışları. Yarışlar şagirdlərə qalib olma həvəsi ilə keçirilmiş dərslərin təkrarında kömək edir, daha çox çalışmağa yönəldir. Mən bilik yarışlarını sinif içində fərdi və ya qrup şəkilində təşkil edirəm. Ümumi keçirilmiş mövzulardan suallar hazırlayır və suallara digər şagirdlərdən daha çox cavab vermiş 3 şagirdi qalib elan edirəm. 1-ci yerin qalibinə həvəsləndirmək məqsədilə qələm hədiyyə verilir. Daha sonra "Həftənin fəalları" adlı cədvəl hazırlayıram. Həftə ərzində fəallıq göstərən məktəblilərin şəkilləri cədvələ əlavə olunur və cədvəl hər həftə nəticələrə əsasən yenilənir.

Belə həvəsləndirmələr şagirdlərin məktəbdə ki davamiyyətinə də müsbət təsir göstərir. Belə ki şagird fəallıqdan geri qalacağını düşünərək dərsdən qalmaq istəmir. Dərslər maraqlı keçirilərsə, müasir standartlara uyğun olarsa, məktəblərdə zəif oxuyan şagirdlərin sayı azalar, bu da gələcəkdə savadsızlığın, təhsilsiz insanların sayını azaldar.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır".




Ulu öndərimizin dəyərli kəlamları öz pedaqoji fəaliyyətimizdə bizə bələdçi olmalıdır. Müəllimlik peşəsi yeniliklər tələb edən peşədir. Əgər XXI əsrdə yaşayırıqsa, deməli zamanə ilə ayaqlaşmaq vacibdir.

Biz məktəbliləri hərtərəfli biliklərlə təmin etməli, onlarda bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, dünyagörüşə malik olan şəxsiyyət yetişdirməliyik.

Cəmiyyət təhsilsiz inkişaf edə bilməz, təhsil gələcəyimizin təminatıdır. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq mümkündür. Dahi Azərbaycan şairi Nizami Gəncəvi hələ 10 əsr bundan əvvəl elmin gücü haqqında deyirdi:

Əmr etdi, verildi fərman,
Alimdir gözümdə ən aziz insan.
Elmlə, hünərlə! Başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!

Şairin fikrincə, yalnız insan elmin gücü ilə qələbə çalıb, müvəffəqiyyət əldə edə bilər. Təhsilimizin inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməməliyik!

**Problemin aktuallığı.** Keyfiyyətli təhsil prosesinin əsas tərkib hissələrindən biri dərsin təşkilidir: onun mərhələləri, təlimin forma, üsul və metodlarıdır. Əgər dərs müasirdirsə, o, keyfiyyətli təhsilin əsasını qoyur. Texnologiyaların köməyi ilə təşkil olunan müasir dərsdə bu texnologiyaların təhsilə tətbiqi düzgün seçilməlidir.

**Problemin yeniliyi.** Məqalədə müasir dərsə verilən tələblər diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən təhsil müəssisələrinin müəllimləri faydalanacaqlar.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Templ. Ç., Meredit K., Stil C. Uşaqlar necə dərk edir? İlkin Prinsiplər. Açıq Cəmiyyət İnstitutu Yardım Fondu – Azərbaycan. Bakı, 2000.
3. Qədimova X. İnteraktiv təlim metodları və onların yolları. Bakı, 2003.

**E-mail**: gunel.06.04.1996@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub**: 05.07. 2019.